mında onlara bayram sovqatları aparır, lazımi köməkliklər edirlər.

Məktəb şagirdlərinin hərbi hissələrə, andiçmə mərasimlərinə, uşaq evlərinə, qocalar evinə gedişləri, bayram günlərində onları yad etmələri şagirdlərdə xeyirxahlıq, böyüyə hörmət, kiçiyə qayğı tərbiyə edir.

Məktəbimiz təhsil əsri elan edilmiş XXI əsrin tələblərinə cavab verə biləcək şəxsiyyətin formalaşmasına xidmət edir. Dərslərdə yeni təlim üsulları tətbiq olunur. İnteraktiv təlim formasında qurulmuş dərslər vasitəsilə şagirdlərin davamlı inkişafına, onların bilikləri müstəqil öyrənə bilməsinə nail olunur.

Əlbəttə, bu nailiyyətlərə Azərbaycan dövlətinin daimi qayğısı nəticəsində nail olmuşuq. Son üç ildə təhsil ocağımızın istilik sisteminin əsaslı təmiri, məktəbin texniki avadanlıqlar, yeni şagird partaları, şkafları ilə təchizi də bu qayğının ifadəsidir. Buna cavab olaraq pedaqoji kollektivimiz Azərbaycan təhsilində, uğurla həyata keçirilən islahatların yerinə yetirilməsinə töhfələr vermək əzmindədir. 91 nömrəli tam orta məktəbin şagird, valideyn və müəllimləri birgə fəaliyyət göstərərək, təlim-tərbiyənin yüksək səviyyədə qurulması, şagirdlərin milli ruhda tərbiyə alması yolunda bütün qüvvələrini səfərbərliyə alacaqlar.

С.Зульфугарова

Реализация идей

Резюме

В стать дается информация о показателях качества школь города Баку одной из победителей конкурса.

S.Zulfugarova

Embodyment of ideas becoming true

Summary

In the article the information is given about the school № 91 in Baku which was the winner of competition "The Best Universal Education" in 2010/2011 by the order of the president of Azerbaijan Ilham Aliyev on 28 June 2011, and information about the qualitative indices. It is noted that the achievement gained is the result of greate care of government to education and intensive work of pedagogical collective.

Məktəbdə məzmun dəyişikliyi günün tələbidir

Firəngiz Həmidova
Bakı şəhəri 42 nömrəli tam orta məktəbin direktoru

Respublikamızda sürətlə gedən quruculuq işləri, təhsil islahatı proqramı, dünya təhsil sisteminə inteqrasiya məktəblərdə təlimin məzmununda və idarəetmənin optimallaşdırılmasında ən səmərəli yolların üzə çıxarılmasına imkan yaratmışdır. Müstəqilliyin 20 ili ərzində tədrisdə qazanılan təcrübələr, xüsusən son vaxtlar ildən-ilə qabaqcıl məktəblərin sayının artması, təhsildəki məzmun dəyişiklikləri təhsili ön plana çəkmiş, tədris prosesinin modernləşdirilməsi zərurətini ortaya qoymuş, təhsilin elmi idarəsini günün aktual vəzifələrindən birinə çevirmişdir.

Ulu öndərimiz Heydər Əliyevin dediyi kimi, "Təhsil xalqımızın bu günü, millətimizin, dövlətimizin gələcəyi üçün ən vacib sahədir!".

Fəxrlə deyə bilərik ki, bizim 42 nömrəli tam orta məktəb də ölkəmizdə gedən təhsil islahatının yeniləşmə prosesindən kənarda qalmamışdır. Bu gün Bakı şəhərinin qabaqcıl məktəblərindən biri olan məktəbimizin əsası 1930-cu ildə qoyulmuşdur. Məktəb 400 yerlik şagird üçün nəzərdə tutulmuşdur. İllər keçdikcə məktəbin kollektivi daha da artmış, bu məqsədlə müxtəlif tədbirlər görülmüşdür.

Müstəqillik illərində məktəb islahatı geniş vüsət almış, bizim məktəb də bu hərəkata öz töhfəsini vermiş, dövlət proqramına əsasən 2009/2010-cu dərs ilində Təhsil Nazirliyinin xətti ilə əsaslı təmir edilmişdir. 2010/2011-ci dərs ilində məktəb üçün 2 yeni korpus inşa edilmişdir. Onlardan biri 200 yerlik tədris korpusu, digəri isə müasir tələblərə cavab verən akt və idman zallarıdır.

Hazırda 52 sinifdə komplektləşən məktəbdə 1070 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 178 müəllim məşğul olur. Məktəbdə tədirs Azərbaycan və rus dillərində aparılır.

Təhsil Nazirliyi və Bakı Şəhəri üzrə Təhsil İdarəsinin köməyilə məktəb təcrübəli, ixtisaslı müəllimlərlə tam təmin olunmuşdur. İndi onların 94 %-i ali təhsillidir. Bu müəllimlərdən 2 nəfəri elmlər namizədi, böyük əksəriyyəti isə müxtəlif dərəcəli fəxri diplomlara layiq görülmüş müəllimlərdir.

Cari dərs ilində 3 müəllimimiz "Ən yaxşı müəllim" müsabiqəsinə qatılmış, bu müsabiqənin I mərhələsindən uğurla çıxaraq II mərhələyə vəsiqə almışlar.

Məktəbimiz öz fəaliyyət planında

Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu, Ümumtəhsil məktəblərinin nümunəvi Nizamnaməsi, Şagirdlərin ümumtəhsil məktəblərinə qəbulu və yerdəyişməsi haqqında qaydalar, Ümumtəhsil müəssisəsinin pedaqoji şurası haqqında əsasnamə kimi sənədləri əsas götürərək öz işini müasir tələblərə uyğun qurmuşdur.

Məktəbin metodiki şurası, ayrıayrılıqda fənn metodbirləşmələri məktəbin təqvim planlarının qurulmasına, milli kurikulumun, İKT-nin dərslərdə tətbiqində, müəllimlərin innovasiya fəaliyyətinin artırılması və fənlər üzrə monitorinqlərin aparılmasına ardıcıl fikir verirlər.

Ölkəmizdə internet xidmətlərinin sürətlə yayılması məktəbimizin də bu sahədəki işinin səviyyəcə yüksəlməsinə təkan vermişdir. Cari ildə məktəbimiz internet şəbəkəyə qoşulmuş və iş günü ərzində 2 informatika kabineti müəllim və şagirdlərin tam istifadəsinə verilmişdir. Bu da şagirdlərin dərin bilik almasına və onların məntiqi təfəkkürünün inkişafına öz təsirini göstərməkdədir.

Artıq 3-4 ilin təcrübəsi sübut etmişdir ki, fənn kurikulumlarının tətbiqi şagirdlərin təfəkkürünün inkişafına güclü təsir göstərir. Bunun nəticəsidir ki, dərslərdə müntəzəm olaraq şagirdlərin daha çox məntiqi fikir yürütmələri diqqət mərkəzində saxlanır. Kurikulumun tələbləri öz yerini alır, şagirdlər daha çox nəticəyönümlü təlimə meyil edir. Şagirdlərin şəxsiyyət kimi formalaşmasına xidmət edən bu cəhət müəllim-şagird əməkdaşlığının hər fənnin tədrisində ön plana çəkilməsini zəruri edir.

Məktəbimizdə pedaqoji mətbuat müntəzəm izlənilir. Yeni fənn kurikulumunun tətbiqi ilə bağlı sinif müəllimləri pedaqoji mətbuatı izləyir. Həmçinin onlar yeni fənn kurikulumunun tətbiqi ilə bağlı təşkil olunmuş kursların iştirakçısı olmaqla proqramın məzmunu və mahiyyətini açırlar, onlardan öz dərslərində səmərəli istifadə edirlər.

Yaxşı haldır ki, kurikulumun tətbiqi ilə bağlı məktəbdə təşkil olunmuş nümunəvi dərslərdə Təhsil Nazirliyinin nümayəndələri ilə yanaşı Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunun əməkdaşları, BŞTİ-nin metodistləri və şəhərin qabaqcıl müəllimləri də iştirak etmişlər. Eləcə də müəlliflərlə görüş keçirilmiş, I, II, III sinif riyaziyyat dərsliyinin müəllifləri Naimə Qəhrəmanova və Cəmilə Ələkbərova məktəbə dəvət olunmuş, müəllimlər üçün kurikulum proqramının mahiyyətini əks etdirən nümunəvi riyaziyyat dərsi nümayiş etdirmişlər.

Bununla kifayətlənməyərək İKT-nin təhsildə tətbiqi ilə əlaqədar məktəbimizin müəllimləri Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunda təşkil olunmuş "İKT-nin köməyi ilə tədris prosesinin təşkili", "Mimio Moteo-bookalətlər paneli", eləcə də dövlət proqramı üzrə "İntel-gələcək üçün təhsil" kurslarına cəlb olunmuşlar. Bunun nəticəsi olaraq hazırda məktəbimizdə keçirilən əksəriyyət dərslər və tədbirlər İKT-nin köməyi ilə qurulur. Müəllimlərin qarşısında bir vəzifə olaraq qoyulmuşdur ki, bütün dərslərdə innovasiyaların tətbiqinə fikir verilsin. Artıq demək olar ki, ənənəvi dərslər tamamilə öz yerini müasir dərslərə vermişdir.

Bütün bunların nəticəsidir ki, son 3 ildə əldə olunan uğurlarımız ildən-ilə artmışdır. Ötən dərs ilində məktəbin XI sinfini bitirib Bakı Dövlət Universitetinin hüquq fakültəsinə qəbul olan Həsənova Səbahət və hazırda məktəbin XI sinif şagirdi Nəsirov Ramil "riyaziyyat" fənni üzrə respublika bilik yarışının qalibi olmuşlar.

Son 3 ildə məktəbimizin məzunlarının ali məktəblərə qəbul nəticələri yüksək olmuş, 2008/2009-cu tədris ilində məzunlarımızın 59 faizi, 2009/2010-cu tədris ilində 48 faizi, 2010/2011-ci tədris ilində isə 52 faizi tələbə adını qazanmışlar.

TQDK-nın hesablamalarında 500-700 bal toplayan şagirdlər sırasında bizim şagirdlərimiz həmişə fərqlənir: 2008/2009-cu tədrsi ilində 22, 2009/2010-cu tədris ilində 14, 2010/2011-ci tədris ilində 9 nəfər. Qəbul imtahanlarında orta bal göstəriciləri də son 3 ildə xeyli yüksəlmişdir.

Məzunlarımızın digər dövlətlərin ali məktəblərinə qəbul olması da bizi sevindirir. Bu uğurların səbəblərindən biri də odur ki, məktəb rəhbərliyi şagirdlərin buraxılış imtahanlarına hazırlıq mərhələsini daim diqqət mərkəzində saxlayır. Məktəbdə ardıcıl olaraq fənlər üzrə monitorinq və qiymətləndirmə aparılır, yekun vəziyyət təhlil edilərək, nöqsanların aradan qaldırılması üçün təsirli tədbirlər görülür. Məhz bunların nəticəsidir ki, məktəbimiz 2010-cu il 5 oktyabr tarixdə təhsilin keyfiyyət səviyyəsinin yüksəldilməsi sahəsində qazandığı nailiyyətlərə, o cümlədən məzunların ali məktəblərə tələbə qəbulunda ardıcıl olaraq göstərdiyi yüksək nəticələrə görə BŞTİ tərəfindən Fəxri Fərmanla təltif olunmuşdur.

Dövlətlərarası əlaqələrin geniş vüsət aldığı bir zamanda məktəbimizin şagirdləri bu sahədə də aktivlik göstərirlər. Belə ki, məktəbimizin şagirdləri xarici ölkələrin məktəbləri ilə dostluq əlaqələri qurmuşlar. Bu da onların dünyagörüşünün genişlənməsində müsbət rol oynayır.

Məktəbin 9-cu sinif şagirdi Nəzrin Məmmədova 2010-cu ilin iyulunda "British-Scool-in Baku" tərəfindən keçirilmiş ingilis dili üzrə olimpiadada I yer tutaraq Beynəlxalq ümumtəhsil məktəbinin ən yüksək dərəcəli sertifikatına layiq görülərək, İtaliyanın Malta şəhərinə səfər etmək hüququ qazanmışdır.

Məktəbimizdə şagirdlərin asudə vaxtının düzgün təşkilinə də geniş yer verilir. Bu baxımdan məktəbdə fəaliyyət göstərən rəsm, xor, rəqs, idman kimi dərnəklərimizin xüsusi rolu vardır. Hər il məktəbimizdə təqvim bayramları təntənəli qeyd olunur. Bunlardan əlavə "Şirin ləhcəli diyarım mənim!", "9 milyon soydaşın yurduyam, yuvasıyam, mən Azərbaycanam!", "Ordum varsa yurdum var, ordum yoxsa yurdum yox!", "Milli adət-ənənələrimiz", "Sənsiz könlüm qanad çalmaz Azərbaycan!", "Təmiz və zəngin dilimiz uğrunda!", həmçinin "Bir dahinin ad günüdür!" başlığı altında

gül bayramı şagirdlərin yaddaşında izlər buraxır.

Son illərdə məktəbimizin latın qrafikalı əlifba ilə çap olunmuş kitablarla təchizi hamıya məlumdur. Bunun sayəsində kitabxanamız latın qrafikalı ədəbiyyatla zənginləşmişdir. Təhsil Nazirliyi tərəfindən verilmiş "Ayna" uşaq ensiklopediyası şagirdlər tərəfindən səmərəli istifadə olunur. Məktəbdə kütləvi tədbirlərin keçirilməsində, ümummilli lider Heydər Əliyev irsinin öyrənilməsində, kitabxana fondunun qorunub saxlanılmasında məktəb kitabxanasının işi nümunəvidir.

Təhsil islahatının vacib tərkib hissələrindən biri də valideynlərin məktəb həyatında rolunu artırmaqdır. Bununla əlaqədar valideynlərin rəy və təkliflərini qəbul edib operativ həll etmək üçün elektron poçtumuz və vebsayt səhifəmiz yaradılmışdır. Valideyn və ictimaiyyətlə düzgün qurulan işin nəticəsi olaraq məktəbimizdə VMA fəaliyyət göstərir. Bu təşkilatın işində Valideyn –Məktəb Assosiasiyasının prezidenti professor Mübariz Bağırovun rolu əvəzsizdirr.

Məktəbdə xüsusi istedada malik uşaqların inkişafına da diqqət yetirilir. "Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006-2010-cu illər)"nın icrası ilə əlaqədar məktəbdə "İstedadlar bankı" yaradılmışdır. İstedadlı şagirdlərlə aparılan işin nəticəsidir ki, hər il məktəbimizin şagirdləri Təhsil Nazirliyi və digər təşkilat və qurumlar tərəfindən aparılan respublika, Avropa səviyyəli yarış və müsabiqələrin qalibi olmuş, fəxri diplomlarla təltif olunmuşlar. Bu istiqamətdə uşaq Birliyi Təşkilatının, məktəbdə şagird və müəllimlərə göstərilən psixoloji xidmətin də rolunu qeyd etməyə ehtiyac duyulur.

Ümumiyyətlə, son illərdə 42 saylı tam orta məktəb ölkəmizdə gedən təhsil islahatının fəal iştirakçılarından biri olub, təhsilin məzmununun yeniləşdirilməsində, kurikulumun uğurla tətbiqində danılmaz nailiyyətlər qazanmışdır.

Ölkəmizdə gedən quruculuq işlərinin tamhüquqlu iştirakçılarının yetişdirilməsi və onların XXI əsr Azərbaycan vətəndaşı kimi tərbiyə edilməsi pedaqoji kollektivin ən ümdə vəzifələrindəndir.

Məktəbimiz əldə etdiyi nailiyyətlərlə arxayınlaşmır. Təhsil Nazirliyi və Bakı Şəhəri üzrə Təhsil İdarəsinin təhsil islahatı sahəsində böyük təşkilatçılıq işləri pedaqoji kollektivimizi daha əzmlə işləməyə sövq edir.

Ф.Гамидова

Изменения содержания в школе-требование дня

Резюме

В статье говорится о выработанных за последние годы заслугах школы № 42 города Баку.

F.Hamidova

Content Changes at School is the Demand of the Day

Summary

In the article it is spoken about the achievements of secondary school № 42 in the recent years in Baku.

Etimadı doğruldacağıq

Gülüstan Almazova
Hacıqabul şəhəri A.Dadaşov adına 5 nömrəli tam orta məktəbin direktoru

İşgüzarlıq, qayğı, həyəcan dolu daha bir tədris ili yola salındı. Müəllimlərin növbəti məzuniyyətə hazırlaşdığı bir vaxtda Hacıqabul şəhər 5 nömrəli tam orta məktəbin qapısını xoş soraq döydü. Möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının 2010/2011-ci tədris ilində keçirilmiş "Ən yaxşı ümumi təhsil müəssisəsi" müsabiqəsinin qaliblərinin mükafatlandırılması haqqında Sərəncamında bizim məktəbin də adı vardır. Bəli, Hacıqabul şəhər 5 nömrəli tam orta məktəbin adı respublikanın 50 ən yaxşı ümumi təhsil müəssisəsi – qalib məktəbləri sırasındadır.

Təkcə 5 nömrəli tam orta məktəbin kollektivi deyil, bütün təhsil işçiləri və rayon ziyalıları göstərilən bu etimaddan fərəh hissi keçirirlər.

5 nömrəli tam orta məktəbin pedaqoji kollektivi bu uğura yetişmək üçün çox zəhmət çəkmiş, müəllimlər vəzifə borclarına məsuliyyətlə yanaşmış, ölkə və dünya miqyasında təhsil sahəsində gedən prosesləri izləmiş, mütərəqqi yenilikləri, innovasiyaları məktəbə gətirərək onları yaradıcılıqla tətbiq etməyə çalışmışlar. Bu onun nəticəsidir ki, məktəbə hər zaman yuxarı təşkilatlar tərəfindən dəstək göstərilmiş, onun işi düzgün istiqamətləndirilmiş, yeniliklərdən, eksperimentlərdən çəkinməməyə çağırış edilmiş, müəllim və şagirdlərin istedad və bacarıqlarının üzə çıxarılmasına lazımi şərait yaradılmışdır. Uğurları ilə əlaqədar kollektivi ilk təbrik edənlər də ona qayğı göstərənlər oldu. Maraqlıdır ki, vaxtilə bu məktəbə RTŞ müdiri Şükür Məmmədov özü rəhbərlik etmişdir. Kollektivdə qarşılıqlı hörmət, ədəb–ərkan çərçivəsində olan səmimiyyət həmişə rəhbərliyin qarşıya qoyduğu məsələlərin müsbət həllində stimullaşdırıcı meyar olmuşdur.

Hacıqabul şəhər 5 nömrəli tam orta məktəb 1968-ci ildə ibtidai məktəb kimi istifadəyə verilmişdir. Məktəb fəaliyyətə başlayanda 8 nəfər müəllim, 6 sinif komplekti olmuşdur. Sonra şagird kontingentinin, siniflərin sayı artmış, əsas məktəbə çevrilmişdir. 1988 –ci ildə köhnə məktəb binası sökülərək müasir tələblərə cavab verən 864 yerlik orta məktəb binası tikilmişdir. Məktəbin uğurları uzun illərdir ki, ətraf məktəblərin şagirdlərini özünə cəlb edir. Bu baxımdan ildən – ilə məktəbdən gedənlərin sayı azalır, gələnlərin sayı isə çoxalır. İndi məktəbdə 43 sinif otağı, 2 laboratoriya, 2 kompyuter otağı, 14466 kitab tutumu olan kitabxana, idman zalı və açıq idman meydançası,